Azərbaycan Respublikası
Ahıska Türklərinin "VƏTƏN" İctimai Birliyi
ATVİB

# MƏLUMAT JURNALI



Ənvər Odabaşov

№ 1
May 2020



**№ 1** May 2020

* * * * *

**Baş redaktor:**
Ali Bayraqdarov

**Redaktor:**
Emil Rəhimov

**Art dizayner:**
Emil Rəhimov
Roman Paşayev

* * * * *

Azərbaycanda yaşayan Axısxa
Türkləri "Vətən" İctimai Birliyinin Orqanı

Azərbaycan Respublikası, Bakı şəhəri, AZ 1122,
Tbilisi pr. II Alatava 9, 3-cü mərtəbə.
Tel.: (+994 12) 431 73 18
(+994 51) 936 90 14
e-mail: alibayraktar2071@gmail.com
www.ahiska.az

* * * * *

Məlumat Jurnalının çapında
Birliyimizə göstərdiyi dəstəyə görə
"Tuna" Mətbəəsinin təsisçisi
Rəşid Çulaqova təşəkkür edirik.

TUNA
Nizami rayonu Keşlə qəsəbəsi,
1-ci Önünə küçəsi 19.
AZ1000, Bakı, Azərbaycan
Tel.: (+994 12) 447 15 25;
(+994 12) 447 15 16
Faks: (+994 12) 567 96 84
E-mail: office@tuna.az
www.tuna.az


# Ön söz



Dəyərli oxucular,

Azərbaycanda yaşayan Axısxa Türkləri "Vətən" İctimai Birliyinin orqanı olan jurnalımızı sizə təqdim edirik. Jurnalımızın səhifələrində keçmişdən bu günə xalqımızın tarixi, mədəniyyəti, adət və ənənələri, ictimai həyatı ilə bağlı hadisələr əks olunacaqdır. Məlumdur ki, xalqımız vətən uğrunda 76-ilə yaxın bir müddətdir ki, mübarizə aparır. Bu ağır və tale yüklü məsələdə bütün Axısxa türkləri bir vücud olaraq birləşməli və əlimizdən qələni əsirgəməməliyik.

Bu gün dərtlərimiz saymaqla qurtaran deyil. Məhz buna görədə çalışacağıq ki, dərc olunan hər bir yazı ilk növbədə sizin arzu və istəyinizlə yoğrulmuş olsun. Onu da qeyd edək ki, yazıların bir qismi məhz sizin məktublarınız əsasında hazırlanacaqdır. Siz jurnalımızın birinci və baş müəlliflərisiniz. Sizin köməyiniz, xeyirxah iştirakınız, tərəfsiz və təngidi müdaxiləniz olmadan heç nə edə bilmərik.

Jurnalımızda gələcəkdə əks olunacaq milli-mənəvi dəyərlərin yaradıcısı xalqdır. Xalqın mövcudluğunun əsas göstəricisi olan vətənə məhəbbət, milli-mənəvi dəyərlər onun ən qiymətli sərvətidir. Hər bir xalq kimi Axısxa türkləri də, özünəməxsus milli-dəyərlər sisteminə malikdir və onu orjinalıqla davam etdirməktədirlər. Bu dəyərlər bizim tariximiz, dilimiz, dinimiz, adət-ənənələrimiz, mentalitetimiz, mədəniyyətimiz, ədəbiyyat və incəsənətimizdir. Mənəvi dəyərlər insanı cəmiyyətdə formalaşdıran, inkişafa kömək edən davranış qaydalarıdır.

Bu dəyərlərə dayanaraq 1944-cü ildə doğma torpaqlarından deportasiyaya məruz qalmış hər bir axısxalının və onların övladlarının doğma torpaqlarına qayıtmaq uğrunda mübarizə aparmaq müqəddəs borcudur.

Müasir dünyada mənəvi dəyərlərin böyük təhlükələrlə üzləşdiyi məqamlarda Ümummilli Liderimiz Heydər Əliyev qətiyyətlə bir lider kimi mövqeyini ortaya qoydu. Ulu öndərin milli-mənəvi dəyərlərin qorunması ilə bağlı 2001-ci il avqustun 13-də verdiyi "Milli-mənəvi dəyərlərin pozulması xalqımıza qarşı bağışlanmaz xəyanətdir" bəyanatı problemə müdrik bir el ağsaqqalının münasibəti idi. "Biz öz milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik", deyən Ümummilli liderin işıqlı ideyaları bu gün də yaşayır və bizə örnək olmalıdır.

Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik ənənələrinin layiqli davamçısı olduğunu əməli addımları ilə sübuta yetirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi milli-mənəvi dəyərlərimizin ən qüdrətli mühafizəçisi kimi görürük. Burada Prezident İlham Əliyevin, "Azərbaycan xalqı öz dini və tarixi ənənələrinə çox bağlıdır. Dinimiz, tariximiz, milli-mənəvi dəyərlərimiz bizim üçün müstəsna əhəmiyyət kəsb edir", deyərək bunun nə qədər əhəmiyyətli olduğunu göstərmişdir. Dəyərli soydaşlarımız göründüyü kimi qarşımızda duran ən əsas vəzifəmiz Vətənimiz uğrunda dayanmadan, yorulmadan mübarizə aparmaq və milli-mənəvi dəyərlərimizi qoruyub saxlamaqdan ibarətdir.

Yeni işiq üzü görən jurnalımızın amacı bu dəyərlərimizi təbliğ etmək və gələcək nəsillərə çatdırmaqdır. Millətimiz üçün xeyirli olsun. Sözlərimi Həzrəti Əlinin sözləri ilə bitirirəm, "Şəxsinizə pislik edən düşməni bağışlayın, lakin Vətənizə və millətinizə pislik edən heç kimsəyi bağışlamayın".

*Azərbaycanda yaşayan Axısxa Türkləri "Vətən" İctimai Birliyinin*
*İdarə Heyətinin sədri İsmayıl Ramiz oğlu Rəhimov*



# Kurban merasimi



Ahıska Türk Amerikan Toplum Merkezi Başkanı İslam Shakhbandarov Amerika Birleşik Devletlerinde yaşayan Ahıska türkleri adına kurbanlar keserek Azerbaycan'da yaşayan (Ahıska ve Azerbaycan türkleri olmakla) ihtiyaç sahibi ailelere dağıttı. Ayrıca Avrupa Türk Konfederasyonu (Avrupa Ülkü Ocakları) tarafından da kesilen kurbanları da ihtiyaç sahiplerine dağıtıldı. Azerbaycan'da yaşayan Ahıska türkleri Vatan İctimai Birliyi Başkanı (ATVİB) sayın İsmayıl Rahimov kesilen kurbanları Azerbaycan'ın en uç bölgelerine gönderilmesinde destek oldu. Kesilen kurban etlerinin dağıtıma kadar bekletilmesi için Azerbaycan'da yaşayan ahıskalı iş adamı Tofik Rızayev de iş yerinde bulunan dondurucuların kullanılmasına müsade ederek destekte bulunmuş oldu. Organizasyonda Ahıska Gençlik Genel Sorumlusu Ramil Guseynov ile birlikte ATVİB Başkan yardımcısı Halid Halilov, ATVİB YK üyeleri, Şirinbeyli köyü temsilcisi Feteli Süleymanov ve bir çok Ahıskalı destek için yer aldı. ALLAH KABUL ETSİN.





* * * * *

# Əl tutmaq Əlidən qalıb



27.08.2018-ci il tarixdə Türkiyənin "Dost Eli" Dərnəyi və Azərbaycanda yaşayan Axısxa Türkləri "Vətən" İctimai Birliyinin təşkilatçılığı və Gəncliyə Yardım Fondunun dəstəyi ilə Azərbaycanda kütləvi sünnət mərasimi təşkil olundu. Həyata keçirilən proqram əsasında maddi çətinliklər səbəbindən övladlarını sünnət etdirə bilməyən ailələrin uşaqları sünnət olundu. Qeyd edək ki, Azərbaycanda təşkil olunan kütləvi sünnət mərasimində Saatlı, Sabirabad və Quba rayonlarından olan 700-dən çox imkansız ailənin uşağı sünnət olunub. Sünnət mərasiminin sonunda uşaqların hər birinə Gəncliyə Yardım Fondu tərəfindən müxtəlif hədiyyələr verildi. Bu kimi Sosial lahiyələrimiz gələcəkdə də olacaqdır. Zəhməti və əməyi keçənlərdən Allah razı olsun.








* * * * *





# Gürcüstan görüşləri

12 Sentyabr 2018-ci il tarixdə Gürcüstan Respublikası Mutabakat və Vətəndaş Bərabərliyi Nazirinin birinci müavini hörmətli Laşa Darsalia ilə görüş keçirilmişdir. Görüşdə Azərbaycanda yaşayan Axısxa Türkləri "Vətən" İctimai Birliyinin sədri İsmayıl Rəhimov, Rusiya Federasiyası Beynəlxalq Vətən Cəmiyyətinin sədri Cavid Aliyev və sədr müavini Fuad Pepinov iştirak etmişdir. Bu 2015-ci ildən bəri Vətən İctimai Birliyinin Gürcüstanda keçirdiyi ilk rəsmi görüşü idi.

# VI Bakı Beynəlxalq Humanitar Forumu




**25** Oktyabr 2018-ci il tarixdə Heydər Əliyev Mərkəzində VI Bakı Beynəlxalq Humanitar Forumu keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Forumun rəsmi açılış mərasimində iştirak etmişdir Foruma Azərbaycanda yaşayan Axısxa Türkləri "Vətən" İctimai Birliyinin sədri İsmayıl Rəhimov da dəvət olunmuşdu. VI Beynəlxalq Humanitar Foruma 86 ölkə və 24 beynəlxalq təşkilatdan 580-dən çox nümayəndə qatılmışlar.








* * * * *

# ATVİB-nin İH iclasının 2 saylı Protokolundan çıxarışı



МЕЖДУНАРОДНАЯ ОБЩЕСТВЕННАЯ ОРГАНИЗАЦИЯ

«МЕЖДУНАРОДНОЕ ОБЩЕСТВО МЕСХЕТИНСКИХ ТУРОК «ВАТАН»

INTERNATIONAL SOCIETY OF MESKHETIAN TURKS

№ 45 B "25" 10 2018

**27** oktyabr 2018–ci il tarixdə Azərbaycanda yaşayan Axısxa Türkləri "Vətən" İctimai Birliyi İdarə Heyətində keçirilən iclasın 2 saylı Protokolunun gündəliyində duran, İH tərkibində Vətənə dönüş ilə bağlı Gürcüstan dövlətinin müvafiq qurumları ilə işçi qrupunun yaradılması məsələsinin

Ç I X A R I Ş I

Gündəlikdə duran VIII məsələ ilə bağlı ATVİB-nin İdarə Heyətinin sədri İ.Rəhimov ətraflı çıxış edərək İdarə Heyətinin tərkibində Vətənə dönüş məsələləri ilə bağlı Gürcüstan dövlətinin müvafiq qurumları ilə işçi qurupunun yaradılmasının zəruriliyini bildirdi. Geniş müzakirələrdən sonra ATVİB İH yekdilliklə aşağıdakı tərkibdə komissiyanın yaradılması haqqında qərarı qəbul etdi.

Komissiyanın tərkibi:

Komissiyanın Sədri: Fuad Pepinov

Komissiya üzvləri: İsmayıl Rəhimov, Cavid Aliyev, Xalid Xəlilov, Ali Bayraqdarov, Ansar Usmanov.

Siyahı açıqdır əlavələr edilə bilər.
ATVİB İH – Bakı: 27.10.2018-ci il

# Axısxa türklərinin sürgününün 74, Azərbaycan türklərinin deportasiya olunmasının 70-ci il dönümü

**11** Noyabr 2018-ci il tarixdə Azərbaycanda yaşayan Axısxa Türkləri "Vətən" İctimai Birliyinin təşkilatçılığı və xalqımızın dəstəyi ilə Azərbaycanın Saatlı rayonu Fətəlikənd kəndində Axısxa türklərinin ana vətənlərindən sürgün olunmasının 74-cü il dönümü və Azərbaycan türklərinin 1948-1953-cü illərdə Qərbi Azərbaycandan sürgün olunmasının 70-ci il dönümünə həsr olunmuş anım mərasimi keçirilmişdir. Tədbirdə Azərbaycanın bütün bölgələrində yaşayan Axısxa türklərinin nümayəndələri, Saatlı, Sabirabad rayon rəhbərləri və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etmişdir.











* * * * *








# TİKA-nın dəstəyi ilə vətənimiz Axısxaya ziyarət

**A**zərbaycanda yaşayan Axısxa Türkləri "Vətən" İctimai Birliyinin təşkilatçılığı, TİKA-nın (Türk İşbirliği ve Koordinasyon Ajansı Başkanlığı) dəstəyi ilə 60 nəfərlik heyətlə Gürcüstanın Axısxa bölgəsində, Axısxa türklərinin vətənlərindən sürgün olunmasının 74-cü il dönümünə həsr olunmuş mərasim keçirilmişdir. Tədbirdə Axısxada yaşayan soydaşlarımızda iştirak etmişdir. Xalqımızın sürüldüyü yerdə birliyimiz adından gül çələngi, qərənfillər qoyulmuş və rəhmətə gedənlərin ruhuna Quran-i Kərim oxunmuşdur. Daha sonra Axısxada dünyasını dəyişmiş soydaşlarımızın məzarlığı ziyarət edilmiş, vəfat etmiş insanların ruhuna Quran-i Kərim oxunmuş, Axısxada təhsil alan tələbələrlə görüş keçirilmişdir.











# Gürcüstan görüşlərindən

Axısxa türklərinin vətəndən sürgün olunmasının 74-cü il dönümü ilə əlaqədar olaraq Gürcüstan dövlətinin rəsmiləri ilə görüşlər davam etmiş və növbəti görüş Adigün, Aspindza, Axısxa, Axalkalaki, Borjomi və Ninotsminda regionunun qubernatorun birinci müavini Şalva Berdzenishvili cənabları ilə keçirildi. Görüşdə ATVİB-nin heyəti tərkibində sədr müavini Yusif Qafurov, Cənub bölgə rəhbəri Muhiddin Xəlilov, Gənclərlə iş üzrə rəhbər Məhəmməd Xayipov, məsləhət şurasının sədri Zeynali Binaliyev və Axısxada yaşayan soydaşlarımız Məhəmməd Xutsişvili, Salim İskandarov də iştirak etmişdir. Görüş zamanı İ.Rəhimov göstərilən diqqətə görə təşəkkürünü bildirərək və görüşlərin mütəmadi olması ilə bağlı razılıq əldə olunmuşdur.

* * * * *

# Samsxe-Cavaxetiya Dövlət Universitetinin rəhbərliyi ilə görüşdən

Gürcüstanda rəsmi görüşlər çərçivəsində Axısxada Samsxe-Cavaxetiya Dövlət Universitetinin qurucusu cənab Merabi Beridze və rektor xanım Maka Beridze ilə görüş keçirilmişdir. Bu Universitetdə bizim 46 gəncimiz təhsil almaqdadır. Görüşdə ATVİB sədrinin müavini Yusif Qafurov, Cənub bölgə rəhbəri Muhiddin Xalilov, Gənclərlə iş üzrə rəhbər Mehemmed Kamiloglu, məsləhət şurasının sədri Zeynali Binaliyev, Nəbi Dursunov və eyni zamanda Axısxada yaşayan soydaşımız Məhəmməd Xutsişvili iştirak etmişdir. Universitet rəhbərliyi ilə görüşdə tələbələrimizin gürcü dilini zəif bilməsi, 34 nəfərin bir yataxanada qalması və sairə kimi məsələlər dilə gətirilmişdir. Meydana gəlmiş bu problemlərin həlli yolunda müzakirələr aparılıb, çıxış yolları müəyyən edilmişdir.






* * * * *

# TİKA-nın Bakı ofisinə təşəkkür ziyarəti



ATVİB - nin təşkilatçılğı, TİKA-nın maliyyə dəstəyi ilə Vətənimiz Axısxadakı sürgünün 74-cü il dönümü tədbiri ilə əlaqədar olaraq Azərbaycanda yaşayan Axısxa türklərinin adından təşəkkür etmək üçün TİKA-nın Bakı ofisi ziyarət edildi. Görüşdə TİKA-nın Bakı Koordinatoru Sayın Teoman Tiryaki bəy bu layihənin çox verimli olduğunu, gələcəkdə ATVİB ilə daha böyük lahiyələrə imza atacaqlarını bildirmişdir. Ziyarətdə ATVİB sədri İ.Rəhimov, sədrin birinci müavini X.Xəlilov, Gənclərlə iş üzrə rəhbər Məhəmməd Kamiloğlu iştirak etmişdir.

# Ümrəyə yola salma mərasimindən

**A**zərbaycanda yaşayan Axısxa Türkləri "Vətən" İctimai Birliyinin müraciəti ilə 19 noyabr 2018-ci il tarixində 10 nəfər Ümrəyə yola salındı. İdarə Heyətinin üzvləri, sədrin müavini Xalid Xəlilov, Osman Aslanov hava limanından yola salma mərasimində iştirak etdilər. Bu gözəl işin ərsəyə gəlməsində Türkiyə Cumhuriyyəti Büyükelçiliyinə, Bakı Büyükelçiliyi Din Hizmetleri Müşaviri Prof. Dr. Kamil Güneşə, Türkiyə Cumhuriyyəti Diyanət İşləri Başkanlığına, Dış işleri genel Müdürlüyünün əməkdaşı Tahir Mehtioğluna, ayrıca Ahmed Turanlıya dərin minnətdarlığımızı bildiririk.





* * * * *

# Alpagutun Dünya Birinciliyi tədbirindən





**25**-28 noyabr 2018-ci il tarixləri arasında Bakıda Qədim Turan Döyüş sənəti olan Alpagutun Dünya Birinciliyi keçirildi. Tədbirə Azərbaycanda yaşayan Axısxa Türkləri "Vətən" İctimai Birliyinin sədri İsmayıl Rəhimov da fəxri qonaq olaraq dəvət olunmuşdu. ATVİB-nin sədri yarışda Türkiyədən qatılan Axısxalı övladlarımızın yanına gedərək uğurlar dilədi.







* * * * *

# FUEN-nin Almaniya toplantısından

**12** dekabr 2018-ci il tarixdə FUEN-nin növbəti toplantısı Almaniyanın Berlin şəhərində baş tutmuşdur. Milli azlıqlarla keçirilən konfransa Axısxa türklərini təmsilən ATVİB-nin sədri İsmayıl Rəhimovla bərabər Rusiya "Vətən" Cəmiyyətinin sədr müavini Fuad Pepinov da qatılmışdır.







# Sürgünün 74-cü ildönümü






Axısxa türklərinin vətənlərindən sürgün olunmasının 74-cü ildönümü ilə əlaqədar tədbirlər davam etmişdir. Azərbaycanda yaşayan Axısxa Türkləri "Vətən" İctimai Birliyinin təşkilatçılığı, Axısxalı Gənclər Birliyinin (AGB) dəstəyi ilə Beyləqan rayonu Türklər kəndində anım tədbiri keçirilmişdir. Tədbirdə ATVİB-nin İdarə Heyətinin üzvləri, ətraf rayonlarda yaşayan soydaşlarımız, ziyalılar iştirak etmişdir. ATVİB-nin sədri İsmayıl Rəhimov bu gözəl tədbirin ərsəyə gəlməsində əməyi keçən hər kəsə öz dərin minnətdarlığını bildirmişdir.







# FUEN TAG-ın Tiflis forumundan

**FUEN TAG**-ın Gürcüstanın Tiflis şəhərində 3 günlük Qafqazda Milli Azınlıqlar, Stabil gələcək üçün Diyaloq proqramı baş tutdu. Toplantıda FUEN-nin Prezidenti Lorant Vincze, Halit Habipoglu, Gürcüstanın Uzlaşma və Sivil bərabərlik Nazirliyinin təmsilcisi Rusudan Asatiani, Gürcüstan Parlamentinin Millət vəkili Mahir Darziyev və çox sayda siyasət-təhsil üzrə ekspertlər iştirak etmişdir. Toplantıda daha çox Axısxa türklərinin milli məsələsi, təhsil, ev və torpaqların alqı-satqı zamanı yaranan problemlər müzakirə edilmişdir.












# Gürcüstan görüşləri



Gürcüstanda rəsmi və qeyri-rəsmi görüşlər çərçivəsində Gürcüstan Parlamentinin üzvü, Millət vəkili, Birləşmiş Millətlər Hərəkatının lideri, Prezident seçkilərində namizəd olmuş cənab Qriqol Vaşadze və Parlamentin üzvü, Gürcüstanın sabiq Daxili İşlər Naziri və Müdafiə Naziri olmuş cənab Qriqori Baramidze ilə görüş keçirilmişdir. Görüş zamanı hər ikisi Axısxa türklərinin məsələsinin həllinə müsbət baxdığını və həll oluna biləcək bir məsələ olduğunu bildirdilər. Görüşdə Azərbaycanda yaşayan Axısxa Türkləri "Vətən" İctimai Birliyinin sədri İsmayıl Rəhimov, Məhəmməd Xayıpov, Rusiya Vətən Cəmiyyətinin sədri Cavid Aliyev və müavini Fuad Pepinov da iştirak etmişdir.





* * * * *

# Gürcüstanın Demokratikləşməsi, Soydaşlarımız və Gürcüstan Türklərinin Həmrəylik Günü




25 dekabr 2018-ci il tarixində ATVİB sədri İsmayıl Rəhimov "Gürcüstanın Demokratikləşməsi, Soydaşlarımız və Gürcüstan Türklərinin Həmrəylik Günü" tədbirində Borçalı Cəmiyyətinin dəvəti ilə fəxri qonaq qismində iştirak etdi. Azərbaycanda yaşayan Axısxa Türkləri "Vətən" İctimai Birliyi sədrinin və İdarə Heyətinin son 6 ayda aktiv fəaliyyətinə görə plaket təqdim edildi. İ.Rəhimov tədbirdə ona və Birliyimizə göstərilən diqqətə görə Borçalı Cəmiyyətinin sədri dəyərli Zəlimxan bəy Məmmədliyə və Borçalı türklərinə öz dərin təşəkkürünü bildirdi.







# 20 Yanvar faciəsinin anım günü

Azərbaycanda yaşayan Axısxa Türkləri "Vətən" İctimai Birliyinin İdarə Heyətinin sədri və üzvləri 20 Yanvar Şəhidlərimizi anmaq üçün Şəhidlər Xiyabınını ziyarət etdilər. Allah şəhidlərimizə rəhmət eləsin.







* * * * *

# Gənclərimizin təhsilə yönəldilməsi əsas işimizdir!



Azərbaycanda yaşayan Axısxa Türkləri "Vətən" İctimai Birliyinin müraciəti və təşkilatçılığı ilə Türkiyə Cumhuriyyətinin "Uluslararası mesleki ve teknik eğitim proqramı (TÜRKMEK)", T.C Başbakanlık Türk İşbirliği ve Koordinasyon Ajansı Başkanlığı (TİKA), İstanbul Ticaret Odasının dəstəyi və köməyi ilə Azərbaycanda yaşayan Axısxa türkü 8 gəncimiz TÜRKMEK-in təşkil etdiyi imtahandan keçərək 45 gün müddətinə ixtisasartırma və yeni peşələrin qazanılması məqsədi ilə Türkiyə Cumhuriyyətinə göndərilib. Gənclərimiz Türkiyənin İstanbul şəhərində təhsil alaraq və 3 gün müddətinə Vətənimiz Axısxaya səyahət etmişdirlər. Gənclərimizin bu proqramda iştirakını və sənədlərin hazırlanmasını ATVİB-nin İdarə Heyətinin üzvü Osman Aslanov təşkil etmiş və gənclərimizi Heydər Əliyev Beynəlxalq Hava Limanından ATVİB-nin sədrinin birinci müavini Xalid Xəlilov yola salmışdır. Gənclərimizə uğurlar arzulayaraq əməyi və zəhməti keçən hamıya öz dərin təşəkkürümüzü bildiririk.

* * * * *

# Azərbaycanın böyük şairi B.Vahabzadənin vəfatının 10-cu ildönümü mərasimindən

14 dekabr 2018-ci il tarixində Türk İşbirliği və Koordinasyon Ajansının (TİKA), Bakı Yunus Emrə İnstitutunun və Azərbaycan Yazıçılar Birliyinin təşkilatçılığı ilə Azərbaycanın böyük şairi Bəxtiyar Vahabzadənin vəfatının 10-cu ildönümü qeyd edilmişdir. Tədbirdə Azərbaycan Yazıçılar Birliyinin sədri yazıçı Anar Rzayev, Millət vəkili Sabir Rüstəmxanlı, TİKA-nin Bakı Koordinatoru Sayın Teoman Tiryaki, Bakı Yunus Emrə İnstitutunun direktoru Sayın Cihan Özdemir, Azərbaycanda yaşayan Axısxa Türkləri "Vətən" İctimai Birliyinin sədri İsmayıl Rəhimov və sədr müavini Xalid Xəlilov iştirak etmişdir. İ.Rəhimov tədbirə dəvətlərinə görə TİKA Koordinatoru Sayın Teoman Tiryaki bəyə və Sayın Cihan Özdemir bəyə dərin təşəkkürlərini bildirdi.








# Xocalı soyqırımının 27-ci ildönümünə həsr olunmuş tədbirdən









**25** Fevral 2019-cu il tarixdə Azərbaycan Respublikasının Prezidenti yanında Bakı Beynəlxalq Multikultu-rializm Mərkəzində Xocalı Soyqırımının 27-ci ildönümünə həsr olunmuş tədbir keçirildi. Tədbirə Azərbaycanda yaşayan Axısxa Türkləri "Vətən" İctimai Birliyi də dəvət olunanlar arasında idi. Anım tədbirində Prezident Aparatının nümayəndələri, AMEA-nın və Dövlət İdarəçilik Akademiyasının professorları, ictimaiyyət və KİV nümayəndələri iştirak etmişdir. Mərasimdə çıxış edən Dövlət İdarəçilik Akademiyasının professoru xanım Həvva Məmmədova Xocalı soyqırımı zamanı faciələr görmüş 54 Axısxa türkü ailəsi barədə geniş məlumat verərək, Xocalı soyqırımı tək Azərbaycan xalqının deyil, həmçinin Axısxa türklərinə qarşı törədilmiş soyqırım olaraq tarixə düşdüyünü tədbir iştirakçılarına çatdırdı.

* * * * *

# Qubada "Asan Həyat Bahar Festivalı"

**3** Mart 2019-cu il tarixdə Quba şəhərində ASAN Xidmətin və Quba İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Asan Həyat Bahar Festivalı" keçirildi. Festivalda Azərbaycanda yaşayan az saylı xalqlarda öz adət ənənələrini, geyimlərini və milli mətbəxlərini nümayiş etdirdilər. Festivalda Axısxa türklərini Azərbaycanda yaşayan Axısxa Türkləri "Vətən" İctimai Birliyi təmsil etmişdir. Tədbirdə ATVİB-nin İdarə Heyətinin üzvü, Şimal bölgəsi rəhbəri Səlimcan Rizmanov, Nəriman Dəmiroğlu, Məhəmməd Kamiloglu və çox sayda soydaşımız iştirak etmişdir. Axısxa türklərinin stendinə maraq daha çox idi belə ki, Quba rayon İcra Hakimiyyətinin Başçısı cənab Ziyəddin Əliyev tədbirdə iştirak edən səfirlərə geniş məlumat vermişdir. Bu festivalda təşkilatçılığa görə başda ATVİB-nin İdarə Heyətinin üzvü Səlimcan Rizmanova və digər soydaşlarımıza öz təşəkkürümüzü bildiririk.













# Gənclərlə görüş





**10** Mart 2019-cu il tarixdə Azərbaycanda yaşayan Axısxa Türkləri "Vətən" İctimai Birliyinin ofisində Azərbaycanda yaşayan bizim gələcəyimiz olan gənclərlə görüş keçirilmişdir. Görüşə Respublikanın müxtəlif bölgələrindən, Avropada təhsil almış və hal-hazırda əmək fəaliyyətində olan gənclər qatılmışdır. İclası protokollaşdırmaq üçün səs verme yolu ilə iclasa sədr ATVİB-nin Gənclərlə iş üzrə rəhbəri Məhəmməd Kamiloglu, katib Sərvəl Ulfanov seçilmişdir. Tədbirdə Azərbaycanda yaşayan Axısxa Türkləri "Vətən" İctimai Birliyinin fəaliyyətindən, gənclərin Milli məsəlimiz olan Axısxaya dönmək yolundakı rolundan geniş söhbət açılmışdır. Tədbirdə iştirak edən övladlarımız tək bir ağızdan xalqın iradəsi ilə seçilmiş bir Birliyin yanında olduğunu dilə gətirmiş və Birliyin fəaliyyətində əllərindən gələn köməkliyi göstərməyə hazır olduğunu bildirmişlər. İclasda Türkiyənin Ahıskalı Gənclər Birliyinin Nizam İntizam Komitəsinin rəhbəri Ramazan Nəsirli tədbirə təmsil etdiyi Birlik adından deyil, Azərbaycanda yaşayan bir gənc olaraq və xalqın iradəsi ilə seçilmiş bir Birliyə yəni ATVİB-nə dəstək olmağa gəldiyini bildirmişdir. Tədbirdə iş adamları, Birliyin aktiv nümayəndələri iştirak etmişdir. Daha sonra Axısxalı iş adamı Telman Mikayıllı sahibi olduğu Ahiska Manti Evində gənclərin şərəfinə ziyafət vermişdir.













* * * * *

# Türkiye Cumhuriyyetinin Azerbaycandakı Büyükelçisi Sn Erkan Özoral ile görüşden









**14** Mart 2019-cu il tarihinde Azerbaycanda yaşayan Ahıska Türkleri "Vatan" İctimai Birliyinin teşebbüsü, Türkiye Cumhuriyyetinin Azerbaycandakı Büyükelçiliyinin ev sahipliği ile, Azerbaycanın bütün bölgelerini kapsayan Ahıska türklerinin kanaat önderleri (Ziyalılar), iş adamları, ATVİB-nin Yönetim Kurulu üyeleri, din ve ilim adamlarının iştirakı ile Bakü Buyükelçisi sayın Erkan Özoral beyle görüş olmuşdur. Görüş zamanı Ahıska türklerini ilgilendiren, rahatsız eden konular ele alındı. Ele alınan konular içinde, Azerbaycandan Türkiyeye göç yapan soydaşlarımızın vatandaşlık aldıkdan sonra çıkan problemleri, Birliğimizin vatan konusundakı çabaları, Azerbaycanda yaşayan Ahıska türklerinin birliğine zarar getirilebilecek gündem maddeleri istişare edilmiştir. Bu görüş için Azerbaycanda yaşayan Ahıska türklerin adından sayın Büyükelçimize çok teşekkür ediyoruz.

# Novruz şənliyi



**23** Mart 2019-cu il tarixdə Saatlı rayonu Günəşli kəndi Mədəniyyət klubu, İcra nümayəndəliyi, Ömər Faiq Nemanzadə adına ümumi orta məktəb və Azərbaycanda yaşayan Axısxa Türkləri “Vətən” İctimai Birliyinin təşkilatçılığı ilə Novruz Bayram tədbiri keçilmişdir.







* * * * *

# Nazir xanım Ketevan Tsikhelaşvili ile görüş

**12** sentyabr 2018-ci il tarixdə Gürcüstan Respublikası Mutabakat və Vətəndaş Bərabərliyi Nazirin birinci müavini Laşa Darsalia ilə görüş keçirilmişdi. Həmin görüşün nəticəsi və davamı olaraq Nazir (Bakanı) xanım Ketevan Tsikhelaşvili, nazir müavini xanım (Yardımcısı) Lia Gigauri ilə görüş keçirilmişdir. Görüşdə Axısxa türklərinin milli məsələ üzrə ekspert Rusudan Asatiani, Azərbaycanda yaşayan Axısxa Türkləri “Vətən” İctimai Birliyinin sədri İsmayıl Rəhimov, Rusiya “Vətən” Cəmiyyətinin sədri Cavid Aliyev, sədr müavini Fuad Pepinov iştirak etdilər. Nazir Xanım Ketevan Tsikhelaşvili ilə görüş qarşılıqlı dialoq halında keçdi. Bu görüşlərdə əldə edilmiş razılıqlar əsasında, gələcək görüşlərimizi qərarlaşdırdıq.





* * * * *

# “Vətənə yerləşmiş hər bir Axısxalı bir Vətən qəhrəmanıdır!”

**V**ətənə Dönüş Komissiyasının Vətənimiz Axısxada olduqları müddətdə burda yaşayan soydaşlarımızın bir qismi ilə görüş keçirmiş, rastlaşdıqları problemləri dinləmişlər. Unutmayaq ki, Vətənə yerləşmiş hər bir Axısxalı birər Vətən qəhrəmanıdır.







# Qubernatorluqda görüş

**28** Mart 2019-cu il tarixdə Vətənə Dönüş Komissiyasının Vətənimiz Axısxadakı görüşləri çərçivəsində Adigün, Aspindza, Axaltsıx, Axalkalaki, Borjomi və Ninotsminda regionunun Qubernatorunun birinci müavini Shalva Berdzenişvili ilə görüş keçirilmişdir. Görüşdə Rusiya Vətən Cəmiyyətinin sədri Cavid Aliyev, sədr müavini Fuad Pepinov iştirak etmişdir. Görüş zamanı bu regionda yaşayan soydaşlarımızın problemlərini müzakirə edərək, bu cür görüşlərin mütəmadi olması üçün razılığa gəlinmişdir. Qeyd edək ki, son 5 ayda bu qurumla 2-ci görüşümüzdür. Belə ki, 2018-ci ilin noyabr ayında ATVİB-in İdarə Heyətinin üzvləri ilə bu Qubernatorluqda görüş keçirilmişdi.





* * * * *

# 2-ci Beynəlxalq Elmi Konfrans









Azərbaycan Respublikası Prezindenti yanında Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində, Terror Multikulturalizmə qarşı lahiyəsi çərçivəsində 2-ci Beynəlxalq Elmi Konfransı keçirilmişdir. Konfransa Azərbaycanda yaşayan Axısxa Türkləri "Vətən" İctimai Birliyi də dəvət olunanlar arasında idi. Konfranda İsmayıl Rəhimov, Xalid Xəlilov, Prezident Aparatının əməkdaşları Anar Əlizadə, Məhsəti Əliyeva, ölkəmizdəki səfirlər, dini icma rəhbərləri, elm xadimləri və ictimaiyyət nümayəndələri iştirak etmişdir. Dəvət olunanlar arasında Yeni Türkiyə Strateji Araşdırmalar Mərkəzi Tarix İnstitutunun direktoru çox dəyərli professor Kemal Çiçək də vardı. İ.Rəhimov və X.Xəlilov Kemal bəyə Azərbaycanda yaşayan Axısxa türkləri və İctimai birliyimizin fəaliyyəti barədə geniş məlumat verdilər.

* * * * *

# Tiflis görüşlərindən

**7** Aprel 2019-cu il tarixdə Azərbaycanda yaşayan Axısxa Türkləri "Vətən" İctimai Birliyinin sədri İsmayıl Rəhimov Gürcüstan Parlamentinin əslən Azərbaycanlı olan Millət Vəkili Mahir Dərziyevlə Tiflisdə keçirilmiş tədbirdə bir araya gəlmişdir. Millət Vəkili Axısxa türklərinin haqlı davasını tam dəstəklədiyini və Vətənə dönüş məsələsində Axısxa türklərinə əlindən gələn yardımları etməyə hazır olduğunu bildirdi.





# “Rusiyada İslam Tarixi” kitabının təqdimatı



**25** Aprel 2019-cu il tarixində Azərbaycan İlahiyyət İnstitutunda Azərbaycan Respublikası Prezidenti yanında Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təşkilatçılığı ilə Rusiya Federasiyası Müsəlman Ruhani İdarəsi Sədrinin 1-ci müavini, Moskva İslam İnstitutunun rektoru Dəmir Muxeddinovun “Rusiyada İslam Tarixi” kitabı təqdimat mərasimi keçirildi. Tədbirə Azərbaycanda yaşayan Axısxa Türkləri “Vətən” İctimai Birliyinin Sədri İsmayıl Rəhimov da dəvət olunanlar arasında idi. Mərasimdə Prezident Aparatının əməkdaşları, Universitet rektorları, Millət vəkilləri, siyasi xadimlər və ictimaiyyət nümayəndələri iştirak edirdi. ATVİB-nin sədri İ.Rəhimov göstərilən diqqətə görə Azərbaycan İlahiyyət İnstitutunun rektoru Ceyhun Məmmədova və İslamşünaslıq Kafedrasının müdiri Axısxalı türklərin dəyərli övladlarından olan Əhməd Niyazov hocamıza öz dərin təşəkkürünü bildirmişdir.





* * * * *




# İftar tədbirindən

**22** May 2019-cu il tarixdə TİKA-nın təşkilatçılığı və dəstəyi ilə Saatlı rayonu Orta Muğan (Qarayevkənd) kəndində iftar yeməyi verildi. Bölgə əhalisinin və çox dəyərli İsmail hocamızın dəvəti ilə Azərbaycanda yaşayan Axısxa Türkləri “Vətən” İctimai Birliyinin sədri İsmayıl Rəhimov və İdarə Heyətinin üzvləri də iftar yeməyinə dəvət olunanlar arasında idi. İftar mərasimində çox dəyərli ziyalılarımız, bölgədə fəaliyyət göstərən din xadimlərimiz də iştirak etdilər. Azərbaycanın hər bölgəsində olduğu kimi Orta Muğan kəndində 6 Axısxa türkü şəhid ailələrinə Axısxalı Şəhidlər kitabı təqdim olundu. Belə gözəl tədbirin ərsəyə gəlməsində TİKA-nın Bakı Koordinatoru sayın Teoman Tiryaki bəyə axısxalılar və ATVİB-nin İdarə Heyəti adından minnətdarlığımızı bildiririk.





# “Var olduqca onlar, var olacaqdır millətimiz İnşAllah”!




Azərbaycan Respublikası Silahlı Qüvvələrində çalışan, isminin hallanmamasını rica eden yüksək rütbəli Axısxa Türkü zabitimiz öz əlləriylə Azərbaycanda yaşayan Axısxa Türkləri “Vətən” İctimai Birliyinə Allah rizası üçün divar lövhəsi hazırlayaraq hədiyyə etmişdir. Buna görə dəyərli soydaşımıza ATVİB İH olaraq təşəkkür edirik. Şükürlər olsun ki, millətimizin içində ağı-qaradan seçən bir-birindən çox dəyərli insanlarımız var. “Var olduqça onlar, var olacaqdır millətimiz İnşAllah!”

* * * * *

# Şagirdlərin Şəhidlər Xiyabanı ziyarəti



25 May 2019-cu il tarixində Saatlı rayonu Ömər Faiq Nemanzadə adına Günəşlikənd ümumi orta məktəbin şagirdləri və bu məktəbin tədris işləri üzrə direktor müavini, ATVİB İdarə Heyətinin üzvü hörmətli Kərəm Qoçiyevin rəhbərliyi ilə bir qrup şagirdimiz Şəhidlər Xiyabınını ziyarət etdilər. Kərəm Qoçiyev Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalanlardan söz açarkən onların arasında 81 axısxalı şəhidin və yüzlərlə qazi olduğunu şagirdlərə bildirdi. Daha sonra Milli Qəhrəmanımız əslən Axısxa türkü olan İsgəndər Aznaurovun məzarını ziyarət etdilər. Kərəm müəllim Milli Qəhrəman İsgəndər bəyin sücaətlərindən, keçdiyi döyüş yolunu şagirdlərə çatdıraraq, onu da qeyd etdi ki, şəhidlər yalnız doğum günü vəya şəhid olduğu gün deyil həmişə yad edilərək ziyarət edilməlidir. Kərəm müəllimin dediyinə görə bu cür ziyarətlər artıq adət halını almışdır, belə ki keçən ay başqa bir qrup şagirdlərlə Şəhidlər Xiyabanını ziyarət etmişdilər. Bu cür ziyarətlər gənclərdə milli ruhun formalaşmasına çox kömək edir. Sonda Azərbaycanın ərazi bütövlüyü uğrunda Şəhidlər Xiyabanında yatan şəhidlərin ruhuna dualar edilmişdir.






* * * * *

# Gənclərimizə vətənpərvərlik duyğularını aşılarkən



Saatlı rayonu Fətəlikənd kənd tam orta məktəbinin hazırlıq qrupunun müəllimi, Azərbaycanda yaşayan Axısxa Türkləri “Vətən” İctimai Birliyinin İdarə Heyətinin üzvü dəyərli Osman Aslanovun rəhbərliyi ilə bir qrup şagirdimiz Birliyimizi ziyarət etmişdir. Osman müəllim Birliyimizin fəaliyyətindən, görülən işlərdən, hədəflərdən danışaraq dəyərli şagirdlərimizi məlumatlandırdı. Şagirdlər də öz növbəsində tələbə adını qazandıqdan sonra Birliyimizin fəaliyyətində daha aktiv olacaqlarını bildirdilər. Daha sonra 15 İyun Dirçəliş günü ilə əlaqədar Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edən şagirdlər ruhuna dualar etdilər.







# ATVİB Türkiyə Cumhuriyyəti Gəncə Başkonsolunu ziyarət etmişdir





Gəncə şəhərində görüşlər zamanı Türkiyə Cumhuriyyəti Gəncə Başkonsolunu ziyarət edilmişdir. Görüşdə Azərbaycanda yaşayan Axısxa Türkləri "Vətən" İctimai Birliyinin sədri İsmayıl Rəhimov, İdarə Heyətinin üzvləri Osman Aslanov, Əhməd Cabbarov, bölgədə yaşayan soydaşlarımız da iştirak etmişdir. Başkonsol hörmətli Zeki Öztürklə görüş zamanı İ.Rəhimov birliyimizin fəaliyyətindən, o bölgələrdə yaşayan Axısxa türkləri barəsində geniş məlumat vermişdir. Sədr bu isti və səmimi münasibətinə görə hörmətli Zeki Öztürkə və Başkonsolosluğun əməkdaşlarına öz dərin təşəkkürünü bildirmişdir.

* * * * *

# TİKA-nın İftar tədbirindən





Türkiyə Cumhuriyyətinin Dünyaya uzanan əli olan TİKA Bakıda İftar yeməyi vermişdir. iftar yeməyində Sayın Büyükelçimiz Erkan Özoral bəy, millət vəkilləri, siyasi-ictimai xadimlər, Birliyin sədri İsmayıl Rəhimov, hocamız İsmayıl Calalov iştirak etmişdir. Allah verilən iftarları, edilən duaları qəbul etsin.

* * * * *

# FUEN Çalışma Grupları Slovakya-Bratislavada toplandılar

13 Haziran 2019 tarihinde FUEN Çalışma Grupları toplantıları çerçevesinde, FUEN Türk Azınlıkları/Toplulukları Çalışma Grubu toplantısı grubun sekretaryasını yürüten ABTTF öncülüğünde gerçekleştirildi. Toplantıya Batı Trakya Türklerini temsilen ABTTF, Rodos-İstanköy Türklerini temsilen Rodos, İstanköy, Onikiada Türkleri Kültür ve Dayanışma Derneği, Ahıska Türklerini temsilen Rusya Ahıska Türkleri "Vatan" Cemiyeti ile Azerbaycanda yaşayan Ahıska Türkleri "Vatan" İctimai Birliyi, Kırım Tatarlarını temsilen Kırım Tatar Milli Meclisi katıldı. Toplantıda FUEN Kongresi gündemi değerlendirilmekle birlikte FUEN TAG-nin 2019 ikinci yarı yılında gerçekleştirmeyi planladığı etkinlikler görüşüldü.







# Millətimizlə bərabər Ramazan həyəcanı

Saatlı rayonu Fətəlikənd kəndində Azərbaycanda yaşayan Axısxa Türkləri "Vətən" İctimai Birliyinin təşkilatçılığı, dəyərli millətimizin dəstəyi ilə İftar yeməyi verilmişdir. İftar yeməyində ATVİB-nin İdarə Heyətinin üzvləri, hocalarımız, o bölgədə yaşayan soydaşlarımız da iştirak etdilər. Bu İftar yeməyinin ərsəyə gəlməsində əziyyət çəkən hər bir şəxsə öz dərin təşəkkürümüzü bildiririk. Allah qəbul etsin və bu Birliyimiz daim olsun İnşAllah.











* * * * *

# FUEN-nin Slovakiyadakı Konqresindən

Birliyin sədri İsmayıl Rəhimov Slovakiyanın paytaxtı Bratislava şəhərində FUEN-nin 70 illiyinə həsr olunmuş konqresdəki iştirakı davam etmişdir. Konqres 4 gün davam etmişdir. Açılış mərasimində FUEN-nin Prezidenti Lorant Vincze, Vitse Prezident Halit Habipoğlu, ATƏT-nın hüquqi məsələlər üzrə nümayəndələri, səfirlər, ictimaiyyət nümayəndələri iştirak etmişdir. Tədbirdə Axısxa türklərini Azərbaycanda Yaşayan Axısxa Türkləri "Vətən" İctimai Birliyi və Rusiya Vətən Cəmiyyəti təmsil etmişdir.







* * * * *

# FUEN Kongresinden

Ahıska Türklerini temsilen Rusiya Vatan Cemiyyeti ile Azerbaycanda yaşayan Ahıska Türkleri VATAN İctimai Birliyinin sunduğu Ahıska Türklerinin Gürcistan'a dönüşü konusunda eksikleri dile getiren ve kolaylaştırılmış vatandaşlık prosedürü talep eden karar metni oy çokluğu ile kabul edilmişdir.






# Qurtuluş günü ilə əlaqədar tədbir



**14** iyun 2019-cu il tarixdə Azərbaycan Respublikası Prezidenti yanında Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində 15 İyun Qurtuluş günü ilə əlaqədar tədbir keçirilmişdir. Tədbirdə Prezident Aparatının əməkdaşları Etibar Nəcəfov, Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinin Sədr müavini Gündüz İsmayılov, bir sıra icma rəhbərləri iştirak etmişdir. Tədbirə Azərbaycanda yaşayan Axısxa Türkləri "Vətən" İctimai Birliyi də dəvət olunmuşdu. Axısxa türklərini ATVİB İdarə Heyəti sədrinin 1-ci müavini Xalid Xəlilov təmsil edirdi. Xalid bəydə öz növbəsində tədbirə dəvətə görə təşəkkür edərək, Ulu Öndər Heydər Əliyevin Axısxa türklərinə etdiyi yaxşılıqlar barədə tədbir iştirakçılarına məlumat vermişdir.







* * * * *



# Elmi Konfrans

**28** İyun 2019-cu il tarixdə Holiday İnn Hotelində Azərbaycan Respublikası Prezidenti yanında Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təşkilatçılığı ilə Elmi Konfrans keçirilmişdir. Konfransda Prezident Aparatının əməkdaşları, Azərbaycan İlahiyyat İnstitutunun rektoru, ilahiyyat üzrə fəlsəfə elmləri doktoru Ceyhun Məmmədov, Azərbaycanda yaşayan milli azlıqların və dini icma rəhbərləri, İctimaiyyət nümayəndələri iştirak etmişdirlər. Konfransda Axısxa türklərini Azərbaycanda yaşayan Axısxa Türkləri "Vətən" İctimai Birliyinin sədri İsmayıl Rəhimov təmsil etmişdir.









# Saatlı rayon İcra Hakimiyyətinin Başçısı ilə görüş





Saatlı rayon İcra Hakimiyyətinin Başçısı cənab Nazim İsmayılovun dəvəti ilə Azərbaycanda yaşayan Axısxa türkləri "Vətən" İctimai Birliyi İcra Hakimiyyətində olmuşdur. Görüşdə ATVİB sədrinin müavini Ali Bayraqdarov, Cənub bölgə rəhbəri Muhiddin Xalilov, İdarə Heyətinin üzvləri Süleyman Şadmanov, Kərəm Qoçiyev, Hətəmşah müəllim, kənd icra nümayəndələri Məlikşah Qəhrəmanov, Dursun Şükriyev və Zeynal Binaliyev iştirak etmişdir. Görüş zamanı Saatlı rayonunda yaşayan Axısxa türklərinin problemləri dilə gətirildi. İ.Rəhimov ATVİB adından hörmətli Nazim müəllimi Saatlı rayon İcra Hakimiyyətinin Başçısı təyin olunması münasibəti ilə təbrik edərək, işlərində uğurlar diləmişdir.







# İllik Hesabat konfransı









Azərbaycanda yaşayan Axısxa Türkləri "Vətən" İctimai Birliyinin nizamnaməsində ildə 1 dəfədən az olmayaraq İllik Hesabat Konfransının keçirilməsi nəzərdə tutulur. ATVİB İdarə Heyətinin qərarı ilə İllik Hesabat Konfransı Saatlı rayonu Nəsimikənd kəndində (Adigün) keçirilmişdir. Konfransın keçirilməsində 192 Qurultay nümayəndəsinin 128 nəfəri iştirak etmişdir. Qonaqlarla bərabər Konfransda 250 nəfərdən çox soydaşımız iştirak etdi. Konfransda Saatlı Rayonu İcra Hakimiyyətinin nümayəndəsi Azər Həsənov, filologiya elmləri doktoru, Azərbaycan Yazıçılar Birliyinin üzvü professor Asif Hacılı, Rusiya "Vətən" Cəmiyyəti sədrinin müavini, Vətənə Dönüş Komissiyasının sədri Fuad Pepinov və digər ictimaiyyət nümayəndələri iştirak etmişdir. Şəffaflığın təmin edilməsi üçün konfrans canlı yayın formatında keçirilmişdir. Tədbirin sonunda Konfransın keçirilməsində maddi dəstək göstərdikləri üçün, Rəşid Çulaqova, Anvar Xəmidova, Tirman Abbasova, Yaşar Rəsulova, Murad Aliyevə və Nəsimikənd kəndinə Azərbaycanda yaşayan Axısxa Türkləri "Vətən" İctimai Birliyinin İdarə Heyəti və millətimizin adından təşəkkür edirik. Konfransın keçirilməsi üçün yaradılmış Təşkilat Komitəsinin rəhbəri Osman Aslanova, üzvləri Vəlid Aslanova, Mehdi Abdullayevə, Xalid Rəhimova, Ali Bayraqdarova, Kərəm Qoçiyevə, Ismayil Sərvərova, Fətəli Süleymanova, Muhiddin Xalilova, Səlimcan Rizmanova Rafael Qoçaliyevə təşəkkür edildi. Konfransın sonunda yemək ziyafəti verilmişdir. Dəyərli xalqımıza heç bir təmənna qüdmədən xidmət göstərən hər bir kəsə minnətdarlığımızı bildiririk.









# Sədr İsmayıl Rəhimovun Milli Vətən mücadələsi fəaliyyəti tarixindən



**A**xısxa türklərinin Milli liderlədindən Yusif Sərvərov və İsmayıl Rəhimov.



**B**eynəlxalq "Vətən" Cəmiyyətinin ofisi, Moskva şəhəri.



**1996**-cı il Ankarada keçirilən Axısxa türklərinin 2-ci Beynəlxalq Qurultayı, Orxan Uravelli, İsmayıl Rəhimov, Bəkir Mamoyev və Yusif Sərvərov.



**1998**-ci il iyun ayı, İsmayıl Rəhimov İsveçrənin Jenevrə şəhərində Axısxa türklərini Birləşmiş Millətlər Təşkilatında təmsil edərkən.



**1990**-cı il Moskva şəhəri, İsmayıl Rəhimov mücadilə yoldaşı Sərvər Tedorovla bərabər "Vətən" Cəmiyyətinin müraciətini təqdim etdikdən sonra SSRİ Ali Sovetinin binası önündə çəkilmiş şəkil.



**1998**-ci il iyun ayı İsmayıl Rəhimov İsveçrənin Jenevrə şəhərində Krım Tatarlarının Milli lideri Mustafa Krımoğlu ilə. 2019-cu il noyabr ayı Kiyev şəhəri 21 il sonra.



**1996**-cı il Axısxa türklərinin Qırğızıstandakı Qurultayı.




**1996**-cı il Ankarada keçirilən Axısxa türklərinin 2-ci Beynəlxalq Qurultayı.



Axısxa Qalası (14.11.2018)



Türkiyə Cumhuriyyətinin Azərbaycandakı Səfirliyi. (2019)




“Sahipsiz vatanın batması haktır, Sen sahip çıkarsan bu vatan batmayacaktır”.

*Mehmet Akif Ersoy*

